**AZƏRBAYCANDA EKOLOGİYA VƏ ƏTRAF MÜHİTİN QORUNMASI PROBLEMİ DÖVLƏT SİYASƏTİDİR**

**Afaq Piriyeva**

*Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı*
*Afaq.piriyeva@adpu.edu.az*

Azərbaycanda təbiətin mühafizəsi məsələsi dövlət siyasəti səviyyəsindədir. Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra iqtisadiyyatın bütün sahələrində ekoloji mühafizə amilinə diqqət artırılmışdır. Ekologiya üzrə bir çox özəl təşkilatlar (təbiəti mühafizə cəmiyyəti, yaşıllar hərəkatı, ekoloji ittifaq, ekoloji bərpa mərkəzi və s.) fəaliyyət göstərir. Onlar ətraf mühitin mühafizəsi sahəsində dövlət təşkilatlarına kömək etməklə yanaşı, təbii mühitin sağlamlaşdırılması istiqamətində məqədyönlü işlər görürülər.

Heydər Əliyevin ölkədə ətraf mühitin qorunması, təbii sərvətlərin artırılması, zənginləşdirilməsi, ekologiyanın, torpağın, suyun, meşənin mühafizə edilməsi sahəsində apardığı islahatlar, gördüyü səmərəli dövlət tədbirləri bu gün uğurla davam etdirilir. "Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair 2006-2010-cu illər üçün Kompleks Tədbirlər Planı" məhz bu sahədə mövcud problemlərin həllinə yönəldilən mühüm tarixi sənəddir. İqtisadi inkişafla bərabər ətraf mühitin sağlamlaşdırılması, təbii sərvətlərdən xalqımızın rifahı naminə istifadə dövlət siyasətinin prioritetidir.

Prezident İlham Əliyevin imzaladığı fərmanlarda, təsdiq etdiyi milli və dövlət proqramlarında ekoloji problemlərin həlli üçün zəruri olan bütün vəzifələr elmi əsaslarla, müasir dövlətçilik ənənələrinə söykənərək zərgər dəqiqliyi ilə müəyyənləşdirilmişdir. Həmin sənədlər sırasında "Azərbaycan Respublikasında meşələrin bərpa edilməsinə dair Milli Proqram"ı, "Azərbaycan Respublikasında yay-qış otlaqlarının, biçənəklərin səmərəli istifadə olunması və səhralaşmanın qarşısının alınmasına dair Dövlət Proqramı"nı, "Azərbaycan Respublikasında alternativ və bərpa olunan enerji mənbələrindən istifadə edilməsi üzrə Dövlət Proqramı"nı, "Azərbaycan Respublikasında bioloji müxtəlifliyin qorunması və davamlı istifadəsinə dair Milli Strategiya və Fəaliyyət Planı"nı, "Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair 2006-2010-cu illər üçün Kompleks Tədbirlər Planı"nı, "Magistral avtomobil yollarının mühafizə zolaqlarının yaşıllaşdırılması haqqında" Prezidentin 30 oktyabr 2007-ci il, eləcə də "Azərbaycan Respublikasında yaşıllıqların salınması sahəsində idarəetmənin təkmilləşdirlməsi tədbirləri haqqında" 13 iyun 2009-cu il tarixli sərəncamlarını və s. göstərmək olar.

Təsadüfi deyil ki, ekoloji tarazlığın qorunmasını və ətraf mühitin mühafizəsini dövlət fəaliyyətində həmişə önə çəkən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev öz çıxışlarının birində demişdir: "İnsanın yaxşı həyatını təmin edən amillərdən biri də ekoloji vəziyyət, sağlamlıq və təbiətin, ətraf mühitin qorunmasıdır. İnsanların sağlamlığı, ekoloji vəziyyət, udduğumuz hava, içdiyimiz su – bütün bunlara biz çox böyük diqqət göstərməliyik..." Dövlət Başçısının uğurlu ekoloji siyasətinin nəticəsidir ki, indi Azərbaycanın zəngin meşələri, zəngin bitki örtüyü, yüzlərlə parkı, qoruğu və yasaqlığı var. Milli parkların, qoruqların, yasaqlıqların ərazisi genişləndirlir və yeniləri salınır. Qısa müddət ərzində beynəlxalq normativlərə uyğun olaraq Xüsusi Mühafizə Olunan Təbiət Əraziləri genişləndirilib.

Ölkəmizin uğurlu xarici siyasəti və beynəlxalq əlaqələri AR Ekologiya və Təbii Sərvətlər Nazirliyinin də beynəlxalq əməkdaşlıqla bağlı səmərəli fəaliyyətinə şərait yaratmış, bir sıra region dövlətləri və beynəl-

xalq təşkilatlarla əməkdaşlıq haqqında Anlaşma memorandumları və sazişlər imzalanmışdır. Respublikamız ətraf mühitlə əlaqədar 20-dək beynəlxalq konvensiyaya qoşulmuşdur.

Ekoloji siyasətin bu gün uğurla davam etdirilməsi, bu sahədə görülmüş işlər, həyata keçirilən ardıcıl tədbirlər ölkəmizin siyasi, iqtisadi, sosial-mədəni həyatının bütün sahələri ilə yanaşı, ekologiya və ətraf mühitin mühafizəsi sahəsində də yeni-yeni uğurların qazanılacağına inamı artırır. Respublikamız müstəqillik qazandıqdan sonra ətraf mühitin mühafizəsinə göstərilən dövlət qayğısı ildən-ilə artır. Ekologiya və Təbii Sərvətlər Nazirliyi təbii sərvətlərimizin gələcək nəsillərə sağlam, zəngin ötürülməsi üçün səmərəli fəaliyyət göstərir. Xüsusilə Milli parklara, yaşıllıqlara, qoruqlara böyük diqqət və qayğı var. Təbiətimizin biomüxtəlifliyinin qorunub saxlanması üçün hər cür şərait yaradılır. Təsadüfi deyil ki, respublika ərazisində 9 Milli Park, 11 Dövlət Təbiət Qoruğu və 24 təbiət yasaqlığı fəaliyyət göstərir. Ümumilikdə, xüsusi mühafizə olunan təbiət əraziləri ölkə ərazisinin 10,3 faizini, o cümlədən milli parklar 3,7 faizini təşkil edir.

Bu gün bəşəriyyəti düşündürən ən mühüm və həyati problemlərdən biri, bəlkə də birincisi ekoloji durumla bağlı yaranmış problemlərdir. Dünyada gedən proseslərlə bağlı ekoloji problemlər son dərəcə artmışdır. Bu problemlərin səbəblərindən biri müxtəlif vasitələrlə dünyada meşələrin, yaşıllıqların məhv edilməsidir. Kütləvi qırıntılar nəticəsində meşələrimiz xeyli seyrəlmiş, bir çox nadir ağaclar azalmışdır. Erməni işğalında olmuş min hektarlarla meşələrimiz isə ekoloji genosidə məruz qalmışdır.

Təqdirəlayiq haldır ki, son illər ölkəmizdə təhsilin, səhiyyənin, mədəniyyətin və digər sahələrin inkişafı üçün yorulmaz fəaliyyəti ilə fərqlənən, tanınmış ictimai-siyasi xadim, Birinci Vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü və təşkilatçılığı ilə ətraf mühitin mühafizəsi, xalqımızın ekoloji cəhətdən saf və təmiz həyat tərzi keçirməsi üçün yaşıllaşdırma tədbirləri həyata keçirilir. Məhz onun təşəbbüsü və bilavasitə iştirakı ilə hər il respublikamızda milyonlarla ağac və kol əkilir, meşələr və yaşıllıqlar bərpa edilir, yeni-yeni parklar, yaşıllıqlar salınır.

Ətraf mühitin mühafizəsi, xüsusilə biomüxtəlifliyin qorunması sahəsində Azərbaycanda həyata keçirilən tədbrilər beynəlxalq təşkilatlar tərəfindən də dəstəklənir və yüksək qiymətləndirilir. Ekologiya və Təbii Sərvətlər Nazirliyi ölkəmizin ən ciddi ekoloji problemlərinin həllinə cəmiyyətin, qeyri-hökumət və beynəlxalq təşkilatların diqqətini cəlb etməklə dövlətin müəyyən etdiyi ekoloji siyasəti ardıcıl və qətiyyətlə yerinə yetirir. Ətraf mühitin qorunması, təbii ehtiyatların, faydalı qazıntıların, su, torpaq, hava kimi əvəzsiz sərvətlərin, meşələrin və biomüxtəlifliyin mühafizəsi və təbii sərvətlərdən səmərəli istifadə edilməsi ilə əlaqədar bir sıra mühüm əhəmiyyətli tədbirlər həyata keçirilmişdir.

Ətraf mühiti təkcə qanunvericilik aktlarının tətbiqi ilə mühafizə etmək olmaz. Bu sahədə geniş maarifləndirmə tədbirləri aparmaq lazımdır. Hər bir vətəndaşda ekoloji düşüncənin formalaşmasında, təbii sərvətlərimizin qorunmasında, ətraf mühitin mühafizəsində və ondan səmərəli istifadə edilməsində təbliğat işlərinin mühüm rolu vardır.

Beynəlxalq ictimaiyyətin yekdil mövqeyi ilə COP29-un Azərbaycanda keçirilməsi barədə qərar ölkəmizə etimadın və hörmətin təzahürüdür.